# GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏRİN ŞİRMƏMMƏD HÜSEYNOV HAQQINDA SÖYLƏDİKLƏRİ

Görkəmli alim, pedaqoq və publisist, əsl ziyalı Şirməmməd Ağaməmməd oğlu Hüseynovun əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır...

**İlham Əliyev,**
***Azərbaycan Respublikasının Prezidenti***

Mən də Şirməməd müəllimin tələbəsi olmuşam. O, başdan-ayağa ədalət, sədaqət etalonu idi, vətən aşiqi idi.

**Ülkər Hüseynova,**
***həyat yoldaşı,***
***"Elm və həyat" jurnalının redaktor müavini***

Atam çox şərəfli və ləyaqətli ömür yaşayıb. O, Bakı Dövlət Universitetini özünün birinci evi hesab edirdi. BDU onun düşüncəsində Azərbaycanın modeli idi. Biz uşaq olanda onun ən böyük arzusu Azərbaycanı müstəqil görmək idi.

**Fərəh Əliyeva,**
***Şirməmməd Hüseynovun qızı,***
***Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının***
***humanitar siyasət məsələləri şöbəsinin müdiri***

Biz elə ailədə böyümüşük ki, atamın sözü də əməli də bir idi, düz idi. O, çox bütöv insan idi.

**Lalə Hüseynova,**
***Şirməmməd Hüseynovun qızı,***
***Milli Konservatoriyanın Elmi İşlər üzrə prorektoru***

Şirməmməd Hüseynovla bağlı ilk və unudulmaz təsəvvürüm sonralar onun elmi-pedaqoji fəaliyyətini izləməklə daha da dolğunlaşdı. Atdığı addımlara, yazdığı əsərlərə baxıb bir daha inandım ki, Şirməmməd Hüseynov sovet dövründə Azərbaycan Xalq Cumhuriyyəti ilə bugünkü dövlət müstəqilliyimiz arasında mənəvi körpü rolunu oynayan, milli istiqlal atəşinin ürəklərdə öləziməsinə imkan verməyən nadir ziyalılarımızdan biridir.

**Muxtar İmanov,**
***akademik***

Şirməmməd müəllimin fəaliyyəti olduqca çoxşaxəlidir. O, həqiqətləri üzə çıxartmaqdan ötrü təkcə bizim özümüzə məxsus, eyni zamand, hər tarixi hadisəyə obyektiv qiymət verən xarici mənbələrdən topladığı tarixi sənədlərlə, arxiv materialları ilə kifayətlənmir. Azərbaycan və türk xalqının qatı düşməni olan ermənilərin arasındakı tarixə əksər ermənilər kimi yox, düzgün qiymət verən insanların qələmə aldığı həqiqəti əks etdirən yazılarını tapıb bir arxiv sənədi kimi informasiya vasitələrinə təqdim edir.

**Vüqar Əhməd,**
***professor,***
***BEA-nın akademiki***

Şirməmməd Hüseynov yaşamaq, çalışmaq, yaratmaq və həyat eşqi bitib tükənməyən bir insan idi. Sözünün dürüstlüyü, milli xarakteri, mütəfəkkir düşüncəsi onun yaradıcılığının qayəsini təşkil edir. Bu böyük ziyalı ilə münasibətlərimin qurulmasında, Şirməmməd Hüseynovun şagirdi, jurnalistikamızın böyük müəllimi, yardıcılığı ilə qürurlandığımız, Cahangir müəllim Məmmədliyə

minnətdaram. Bu gün minlərlə insan onun jurnalistika fakultəsində dərs dediyi auditoruiyasında olmadan belə Şirməmməd Hüseynovu özünə müəllim hüsab edir, ustad bilir. Mən də onlardan biriyəm. O, həm də mənim ustadımdır.

**Umud Mirzəyev,**
***Beynəlxalq Mətbuat İnstitutunun***
***Azərbaycan Milli Komitəsinin rəhbəri***

Görkəmli alim və pedaqoq, mətbuat fədaisi Şirməmməd Hüseynov. O, tələbələrinin yaddaşında həm də tələbkar və qayğıkeş müəllim kimi qalıb. Doğma universitetin divarları arasında milli jurnalistikamızın tarixi barədə maraqlı mühazirələri, cəlbedici və şirin təhkiyəsi, açıq söhbətləri hələ də qulağımızdan getməyib. O vaxt dərsliklərdə, kitablarda, qəzetlərdə yazılması qadağan olunmuş tarixi hadisələr barədə məlumatları biz onun dilindən eşidirdik. Bu mənada Şirməmməd müəllim tələbələri üçün canlı ensiklopediya idi. Onun mühazirələrini yazdığım dəftəri hələ də saxlayır, lazım gələndə yenidən vərəqləyirəm. Çünki bu mühazirələr həm də ən etibarlı mənbədir.

**Aslan Aslanov,**
***Əməkdar mədəniyyət işçisi***

Şirməmməd müəllimin çağdaş jurnalistikamızın formalaşmasında müstəsna xidmətləri olub. Böyük ömür yolu keçən Şirməmməd müəllim Azərbaycan tarixinin ən önəmli hadisələrinin canlı şahidinə çevrilib. Həm alim, həm də pedaqoq kimi Azərbaycan klassik jurnalistikasının görkəmli simalarının irsini hərtərəfli araşdıraraq yetişməkdə olan nəslə çatdırılmasında mühüm xidmətlər göstərib.

**Elçin Babayev,**
***BDU-nun rektoru***

Şirməmməd Hüseynov bizim hamımız üçün əziz və doğma bir adam idi. O, son müsahibələrinin birində deyirdi ki, mənim əlimdə çoxlu işlərim var, ölməyə vaxtım yoxdur. Hətta türkiyəli alim Bakıda olanda məhz bu sözlərə görə Şirməmməd müəllimlə görüşməyə can atırdı. Mən Şirməmməd müəllimin həyat yoldaşı Ülkər xanımı 1985-ci ildə "Elm və həyat" jurnalında işləməyə başlayanda tanımışam. Sonralar Şirməmməd müəllimə mənə dərs deyəndə gördüm ki, onun işə məsuliyyətli yanaşması Ülkər xanıma da sirayət edib. Bu insanların müasir tariximizdə və şəxsən mənim həyatımda böyük rolu var.

**Rəşad Məcid,**
***Əməkdar mədəniyyət işçisi***

Şirməmməd Hüseynov məktəb yaratmışdı. O, təkbaşına bir akademiya və universitet qədər iş görmüş, Azərbaycan mediasını zənginləşdirərək tarixə çevirmişdi.

**Əflatun Amaşov,**
***Əməkdar jurnalist***

Azərbaycan jurnalistlərinin böyük bir nəsli ondan dərs alıb, onun yetirməsidir. Şirməmməd Hüseynov dünyanın heç nəyinə uymadan təmkinli həyat sürüb, şərəfli ömür yaşayıb. O, bütün zamanlarda heç nədən çəkinmədən öz sözünü deyən görkəmli ziyalımız idi. O, nər kişi idi, mərd kişi idi, sovet dönəmində tələbələrinə millət sevgisi aşılayırdı. Mən bunların çoxunun şahidiyəm.

**Yaqub Mahmudov,**
***akademik***

Doğmaları onu "mehriban ata", "qayğıkeş həyat yoldaşı", "məsuliyyətli ailə başçısı" adlandırılar. Lakin o sadə bir ailə başçısı deyil. O, həm də həyatının hər gününü sevdiyi peşəni başqalarına sevdirməyə həsr edən, bilik və bacarığını əsirgəmədən bölüşən bir müəllimdir. Şirməmməd müəllim onu sevən on minlərlə tələbənin, bir ölkədə bir peşə fəaliyyətində çalışan bütün insanların mənəvi atasıdır. Onu prinsipial, mübariz, usyankar kimi də sevirlər. Çünki o gördüyü işin doğruluğuna inanan və həm də inandıran, fədakar və mübariz ruhlu siyasi-ictimai xadimdir. Adətən belə insanlar haqqında deyirlər ki, onlar özləri üçün yaşamır. Şirməmməd Hüseynov da bu qəbildən olan, lakin adi bir ictimai-siyasi xadim qəlibində olmayan bir şəxsiyyətdir.

**Cavanşir Feyziyev,**
***publisist, tərcüməçi***

Sevimli müəllimimiz Şirməmməd ömrünün 60 ildən çoxunu mətbu zirvələrin daha mükəmməl tanıdılması naminə arxivlərdə keçirən, onların bənzərsiz irsinə ikinci həyat verən mətbuat tədqiqatçılarından olub. Deyirəm nə yaxşı ki, tale bu zaman kəsiyində onu xalqımıza bəxş etmişdi. Yoxsa hələ də həmin dövrün zirvəsinə kim haqq edir sualı uzun müddət cavabsız qalacaqdı.

**Əflatun Amaşov,**
***Əməkdar jurnalist***

Elm təşnəsi olan mötəbər alim etimad göstərdiyi adamların da fikrinə yazı prosesində istinad etməz. O, ancaq gözü ilə gördüklərinə, oxuduqlarına inanır. Yəqin elə bu səbəbdəndir ki, fikir və mühakimələri heç yerdə ikimənalı şəkildə başa düşülmür, labüd həqiqət kimi qəbul olunur. Doğrusu, hərdən adamın ağlına elə gəlir ki, xələf haradasa sələflərini də üstələyib. Bir-birindən qiymətli, ciddi ictimai dəyərə malik faktları Salman Mümtaz şövqü və həvəsi, Əziz Şərif əzmkarlığı, Qulam Məmmədli səyi, inadı ilə ortaya çıxarması belə bir qənaətin hasilə gəlməsinə səbəb olur. Bu qədər zəngin faktları tapıb aşkarlaması, kağıza, yazıya, bir çoxunu, hətta yaddaşına həkk etməsi, söhbət, mükalimə əsasında onlardan təkzibolunmaz həqiqət kimi yerli-yerində istifadə etməsi, həqiqətən də, heyrətamizdir.

**Mahmud Mahmudov,**
***dosent***

Müstəqil Azərbaycan Dövlətinin qurucuları olan böyük düha sahibləri, tərəqqipərvər, millətsevər şəxsiyyətlər, xalqımızın tarixində silinməz izlər qoyan istiqlal mücahidləri müstəqilliyimiz uğrunda mübarizələrdə adlarını tarixin qızıl səhifələrinə yazdıqları kimi, istiqlalçı alim Şirməmməd Hüseynovin da adı onların zəngin və ölməz ədəbi irsinin yorulmaz təbliğatçısı və milli təəssübkeşi kimi xalqımızın qəlbində əbədi yaşayacaq!

**Gülbəniz Babayeva,**
***filologiya üzrə fəlsəfə doktoru***